

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 62 (22.973)

6 aprel 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 5-də Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın açılışında iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul edib.

* * *

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserratın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri Ri Yon-honun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.




## Ü.İ.Bayramovaya "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi fəaliyyətinə görə Ülkər İmamqulu qızı Bayramovaya **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 aprel 2018-ci il*

## Sakinlərin mənzil-məişət şəraiti yaxşılaşdırılır







***Naxçıvan şəhərinin görkəminin zaman keçdikcə daha da gözəlləşməsi sakinlər tərəfindən böyük sevinclə qarşılanır. Son vaxtlarda şəhərdəki yaşayış binalarının əsaslı təmiri və yeni yaşayış komplekslərinin yaradılması əhalinin mənzil-məişət şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb.***

Ötən dövr ərzində Naxçıvan şəhərində onlarla yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların əksəriyyətinin təməli möhkəmləndirilərək əlavə mərtəbələr artırılıb, binalarda müasir kommunikasiya xətləri quraşdırılıb. Əhalinin rahatlığının təmin olunması istiqamətində atılan bu addımlar daimi yaşayış üçün buraya qayıdanların da sayının artmasına səbəb olub.

Naxçıvan şəhərinin Heydər Əliyev prospekti də bu quruculuq ərməğanından pay almış ünvanlardandır. Bu il mart ayının 16-dan etibarən prospektdəki 60 nömrəli binada əsaslı təmir işləri aparılır. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçılarının çalışdığı obyektdə texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İş icraçısı Samiq Abdullayevdən aldığımız məlumata görə, 4 mərtəbəli yaşayış binasının hazırda fasad hissəsi sökülüb, bloklarda söküntü işləri davam edir, daxili elektrik xətti çəkilir. Ərazidə kifayət qədər işçi qüvvəsi çalışır, onlar lazım olan mal-materiallarla təmin olunublar.

Şəhərdə vüsət alan quruculuq işlərindən Nizami küçəsindəki 34 nömrəli bina da yararlanıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilən işlərə ötən ayın 12-də başlanılıb. Əsaslı təmir olunan 5 mərtəbəli yaşayış binasının hazırda fasad hissəsində söküntü işləri gedir, təməl hissədə bərkitmə işləri görülür. Blokların daxildəki divarlarına yeni suvaq vurulur.

Qeyd edək ki, muxtar respublikada əhalinin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər üç mərhələdə aparılır. İlk növbədə, qayğıya ehtiyacı olan vətəndaşlar mənzil və fərdi yaşayış evləri ilə təmin olunurlar. İkinci mərhələdə mövcud yaşayış binaları yenidən qurularaq sakinlərin istifadəsinə verilir. Üçüncü mərhələdə isə qəzalı vəziyyətdə olan yaşayış binaları sökülərək yerində yeni yaşayış binaları tikilir.

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası məqsədilə Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının tələbələri Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində olublar.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov qeyd edib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil dövlətimiz Prezident cənab İlham Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində inamla irəliləyir. Ölkə başçısının fəaliyyətinin ana xəttini təhlükəsizlik, ictimai-siyasi sabitlik, iqtisadiyyatda dinamik inkişaf, dövlət-xalq birliyi, ordu quruculuğu təşkil edir. Xidmət rəisi görüşün aprel döyüşlərində qazandığımız qələbənin 2-ci ildönümündə keçirildiyini diqqətə çatdıraraq vurğulayıb ki, dördgünlük qələbə xalqımızın zəfər tarixidir.



Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov "Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi" mövzusunda çıxış edərək bildirib ki, universitetdə aparılan vətənpərvərlik tərbiyəsi Azərbaycan xalqının və dövlətinin hərb tarixinə, milli dəyərlərə əsaslanır. Əsas məqsəd ondan ibarətdir ki, gənclər Vətənə sonsuz sədaqət, xalqa məhəbbət, milli adət-ənənələrə hörmət və hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunsunlar.

Həqiqi hərbi xidmətə çağırış və çağırışqabağı hazırlıq şöbəsinin rəisi, mayor Vüsal Əliyev "Vətəndaşların ilkin hərbi qeydiyyata alınması" mövzusunda çıxışında səfərbərlik və hərbi xidmətə çağırış işinin təşkili barədə məlumat verib.

Sonda "Şəhadət" sənədli filminin nümayişi olub.

**Səadət ƏLİYEVA**

## Muxtar respublikada qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri intensivləşdirilib

***Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay da davam etdirilib.***

Mart ayında Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 29 əcnəbi aşkarlanıb. Onlardan 24-ü barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 5-i barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 896 müraciət daxil olub. Bu müraciətlərdən 70-i əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Mart ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 826 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 367-si elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya şöbəsi***

## Əhalinin məşğulluğu diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş və hazırda icrası uğurla davam etdirilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə, işaxtaranların məşğulluğunun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə imkan verir.

Dövlət proqramında müasir mərhələdə dövlət məşğulluq siyasətinin davam etdirilməsinin əsas məqsədi əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin davamlılığının təmin edilməsi, əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması, işaxtaranlar üçün özünüməşğulluq imkanlarının artırılması, əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillərin aparılmasıdır. Bu mənada, aktiv məşğulluq tədbirlərindən biri də ənənəvi olaraq hər il keçirilən əmək yarmarkalarıdır. Əmək yarmarkalarında muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda olan boş iş yerləri haqqında məlumatlar əvvəlcədən əldə edilərək məşğulluq mərkəzləri tərəfindən işaxtaranlara təqdim olunur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, cari ildə növbəti əmək yarmarkalarına aprelin 13-də start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində təşkil olunacaq. Aprel ayının 16-da Kəngərli Rayon Mədəniyyət və Turizm Şöbəsinin binasında bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Növbəti gün keçiriləcək əmək yarmarkasının ünvanı Şahbuz şəhər "Araz" kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından aprel ayının 18-də yararlana biləcəklər.

Aprel ayının 19-da ordubadlılara, 20-də babəklilərə, 23-də isə şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası aprel ayının 24-də Regional Peşə Tədris Mərkəzində keçiriləcək.

**Xəbərlər şöbəsi**



*İnkişaf edən bölgələrimiz*

# Dağlar qoynuna sığınan Şahbuz şəhəri

***Şahbuz rayonu muxtar respublikamızın ən ucqar və dilbər bölgələrindəndir. Əzəmətli dağların qoynuna sığınan bu kiçik rayon ölkəmizdə Batabat yaylağı ilə və bir də Məmməd Araz yurdu kimi hər kəs tərəfindən tanınır. Rayon mərkəzi olan Şahbuz şəhəri 88 yaşlı bu bölgənin 11 yaşlı "gənc" şəhəridir. "Naxçıvan Muxtar Respublikasının Şahbuz Rayonunun Şahbuz Qəsəbəsinə şəhər statusunun verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2007-ci il 27 dekabr tarixdə Sərəncam imzalayıb. 2013-cü il fevralın 22-də isə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı və 2013-cü il mart ayının 15-də ölkə Prezidentinin imzaladığı Sərəncamla sahəsi 1454 hektar olan Qarababa kəndi bütövlükdə, Ayrınc kəndinin 92,8, Daylaqlı kəndinin isə 274,8 hektar sahəsi Şahbuz şəhərinə verilib. Bundan sonra rayon mərkəzi olan Şahbuzun ərazisi 2826,6 hektaradək genişlənib. Şəhər elə bir ərazidə yerləşir ki, buradan rayonun bütün yaşayış məntəqələrinə yollar uzanır. Sanki bir ana kimi qollarını övladlarına açır.***

Quruculuq prosesinin ağuşuna aldığı muxtar respublikamızın hər bir bölgəsi, rayonu, qəsəbəsi, kəndi kimi Şahbuz şəhəri də müasir dövrün tələblərinə uyğun həyata keçirilən kompleks yeniləşmə, abadlıq tədbirləri ilə sovet dövründəki köhnə, miskin simasını tərk edib. Burada ildən-ilə ucaldılan, əsaslı təmir olunan yaraşıqlı inzibati və ictimai yaşayış binaları, salınan parklar, bağlar, abadlaşdırılan yol və küçələr kiçik şəhərə böyük dövlət qayğısının göstəricisidir. Bu şəhərdə böyüyüb yaşadığım üçün onun dünəni ilə bugününün canlı şahidi olmuşam. Onilliklər öncə ilə bugünkü şəhərin bütün görüntülərini xatırlayıram.

O vaxtlar Şahbuz qəsəbə idi. Amma, əslində, kəndlərdən tək inzibati binaların burada yerləşməsi ilə fərqlənirdi. Xatırlayanlar olar, həmin binaların fasad hissəsinin suvaqları sökülüb tökülmüş, hörgü daşları üzə çıxmışdı. Pəncərələrin qırılan şüşələrinin yerinə, qışda istilik sisteminin olmaması səbəbindən də polietilen örtük vurulur, onlar da yağışdan-qardan, yayda istidən parça-parça olur, küləkəsəndə yellənir, xoşagəlməz görüntü yaradırdı. Binaların içərisində də heç bir şərait yox idi. İnventarlar köhnəlib elə bir vəziyyətə düşmüşdü ki, işçilər normal bir stul tapıb əyləşə bilmirdilər. Köhnəlmiş stol-stullar adamın paltarlarını da sıradan çıxarırdı.

İctimai yaşayış binalarında vəziyyət tamamilə bərbad idi. Evlərdə nə su, nə də kanalizasiya xətləri var idi. Sakinlər uzaq məsafələrdən vedrələrlə evlərə su daşıyır, istifadə olunmuş çirkli su isə yaşayış binalarının həyətlərinə axıdılırdı. Yağış yağan zaman köhnəlmiş dam örtüklərindən su tamamilə evlərə süzülür, həyətlərdəki çala-çuxurlar keçilməz göl-məçələrə çevrilirdi. Binaların qarşısında sakinlər tərəfindən saymaqla bitməyən "sanitar qovşaqlar" tikilmişdi, daha doğrusu, müxtəlif tikinti materiallarının parçalarından necə gəldi, düzəldilmişdi. Toyuq-cücə saxlanılan hinlərin isə sayı-hesabı yox idi. Həyətlərdə hər kəs istədiyi yeri çəpərləyib özü üçün dirrik də düzəltmişdi. Bütün bunlar isə antisanitariya vəziyyətini son həddə çatdırmışdı. Burada quruculuq işləri, ilk növbədə, yuxarıda sadalanan həmin yöndəmsiz "tikinti"lərdən başlanıldı, ərazilər onlardan təmizləndi, antisanitariya vəziyyəti aradan qaldırıldı.

Onsuz da "çılpaq" dağlarla əhatə olunmuş qəsəbənin bərbad, keçilməz tozlu-palçıqlı yolları, hektarlarla boş sahələri, bir də ki, bərbad binaların köhnə vəziyyəti sıxıcı bir görüntü yaratmışdı. Sanki burada hər yer boz rəngə bürünmüşdü. Köhnəlikdən, baxımsızlıqdan yaranan boz rəngə.

İllərdən bəri aparılan quruculuq işlərindən Şahbuz şəhəri çox bəhrələnib, bu gün burada hər kəsin qürur duyduğu gözəlliyə və rahatlığa nail olunub. Şəhərdə 2003-cü ildə Polis Şöbəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Şahbuz rayon şöbəsi, Gigiyena və Epidemiologiya Mərkəzi, Baytarlıq İdarəsi, 2004-cü ildə rayon məhkəməsi, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Kapital Bankın rayon şöbələri, 2005-ci ildə qaz istismar idarəsi, Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi və uşaq kitabxanası, 2006-cı ildə rayon prokurorluğu, Təhsil şöbəsi və Şahmat məktəbi, 2007-ci ildə Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi, Ahıllar evi, Gənclik mərkəzinin binalarının müasir memarlıq üslubuna uyğun şəkildə tikilib istifadəyə verilməsi ilə Şahbuz qəsəbəsinin yeni növrağı başlandı. Sovet dövlətinin ucqarlardan xəbərsizliyini, bəlkə də, həmin ərazilərin bilərəkdən inkişaf etdirilməməsi üçün həyata keçirdiyi siyasəti müstəqillik dövrünün quruculuq prosesinin məhz ucqarlardan başlanması alt-üst etdi. Ucqar dağlıq ərazidə yerləşən Şahbuz qəsəbəsi inkişaf və tərəqqinin ən yüksək mərhələsinə çatdı. Və elə bu mərhələdə şəhər statusu aldı.

Şahbuz şəhərinin sakinlərini illərdir, muxtar respublikamızda həyata keçirilən abadlıq-quruculuq işləri ruhlandırıb, onlar bu kiçik şəhərin yeniləşməsi üçün abadlıq işlərində fəallıq göstəriblər. Son illər iməciliklər yolu ilə hektarlarla boş sahələrdə meyvə bağları və yaşıllıqlar yaradılıb. Minlərlə meyvə və meşə ağacları tingi əkilib. İndi həmin tinglər qollu-budaqlı ağaclara çevriliblər. Şəhərin hər yerində yayda, payızda yolboyu istədiyin meyvədən dərib dadına baxa bilərsən. İllər əvvəl əkilən çinarlar yol kənarlarında, parklarda, xiyabanlarda bir-birilə qolboyun olub şəhərə yaşıllıq, sərinlik və gözəllik bəxş edirlər. "Çılpaq" dağların fonunda bütün bu yaşıllıqları seyr edərkən adama elə gəlir ki, burada yaşayan insanlar illərlə yaratdıqları yaşıl aləmlə dağlara meydan oxuyub, "el bir olsa, dağ oynadar yerindən" deyirlər.

Zaman ötdükcə hər il aparılan böyük dəyişikliklər dağlar qoynunda



yerləşən ucqar yaşayış məskəninin hüsnünə gözəllik, yenilik, müasirlik qatıb. 2015-ci ildə Şahbuz şəhərinin giriş hissəsində möhtəşəm Bayraq Meydanının yaradılması ilə indi şəhərin hər yerindən yüksəklərdə dalğalanan bayrağımızı görmək sakinlərə qürur hissi bəxş edir. Elə həmin ildə 242 yerlik şəhər uşaq bağçasının istifadəyə verilməsi isə gələcəyimiz olan uşaqlara dövlət qayğısının nümunəsidir. Müasir avadanlıqlarla təchiz olunmuş üçmərtəbəli binada uşaqların sağlam böyümələri, hərtərəfli dünyagörüşə malik olmaları üçün lazımi şərait yaradılıb.

Şahbuz şəhərində iki məktəb fəaliyyət göstərir. İllərdən bəri nəm çəkmiş, uçub-sökülmüş, uşaqların sağlamlığı üçün təhlükə mənbəyi olan məktəblərin hər ikisi ən müasir standartlara uyğun şəkildə yenidən tikilib, kompüter, elektron lövhəli siniflər, zəngin kitabxana, laboratoriyalar, geniş və işıqlı idman zalları ilə təchiz olunub. 630 şagird yerlik şəhər 1 nömrəli tam orta məktəb 2007-ci ildə, 216 şagird yerlik 2 nömrəli tam orta məktəb isə 2014-cü ildə məktəb kollektivlərinin istifadəsinə verilib. 636 şagirdin təhsil aldığı məktəblərin hər ikisi rayonun digər təhsil ocaqları arasında özünəməxsus ənənələri ilə seçilir. Bu gün həmin məktəblərin yetirmələri arasında respublikamızın tanınan, sayılıb-seçilən, muxtar respublikanın, eləcə də rayonun ictimai-siyasi həyatında fəallıq göstərən ziyalılar çoxdur. 1 nömrəli məktəb 2010-2011-ci, 2 nömrəli məktəb isə 2013-2014-cü tədris illərində keçirilmiş müsabiqələrdə "Ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülüb. 1 nömrəli məktəbi 2010-cu ildə bitirən Sirac Sultanlı Prezident təqaüdçüsü olub. Ötən dərs ili də hər iki məktəb üçün uğurlu nəticələrlə yadda qalıb. Məktəbləri bitirən 31 məzundan 24-ü ali, 4-ü isə orta ixtisas məktəblərinə qəbul olunub.

Şəhərdə yeni səhiyyə ocağı da tikilib, 2009-cu ildə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. 2 şöbə, 6 bölmədən ibarət ən müasir tibbi avadanlıqlarla təchiz olunan üçmərtəbəli mərkəzi xəstəxanada indi bütün rayon sakinlərinə tibbi xidmət göstərilir. İllərlə rentgen, USM, EKQ müayinələri, fizioterapiya müalicəsi üçün Naxçıvan şəhərinə üz tutan sakinlər heç bir nəqliyyat xərci çəkmədən və vaxt itirmədən burada müayinə və müalicə olunurlar. Böyrək çatışmazlığından əziyyət çəkən xəstələr də əvvəllər dializ üçün Naxçıvan şəhərinə gedirdilərsə, 2015-ci ildən xəstəxanada fəaliyyətə başlayan Hemodializ şöbəsində müalicə olunurlar.

Mərkəzi, şəhər, uşaq kitabxanaları, Tarix-diyarşünaslıq muzeyi, "Araz" kinoteatrı, şəhər mədəniyyət klubu kimi müəssisələr şəhər sakinlərinin asudə vaxtlarında üz tutduqları ünvanlardandır. 2010-cu ildə şəhərdə müasir arxitektura qaydalarına cavab verən 362 yerlik uşaq musiqi məktəbinin istifadəyə verilməsi burada musiqi təhsilinin daha səmərəli şəkildə həyata keçirilməsinə şərait yaradıb. Hazırda şəhərin gündən-günə yeniləşən Heydər Əliyev prospektində Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi üçün yeni inzibati bina tikilir. Yaxın gələcəkdə yeni bina prospektə daha bir müasir görüntü bəxş edəcəkdir.

Digər infrastruktur sahələr də diqqətdə saxlanılıb. Şəhərdaxili və şəhərkənarı yollardan tutmuş parklaradək, inzibati və ictimai yaşayış binalarının ətrafınadək şaxələnən bütün yollar, səkilər abadlaşdırılıb, asfaltlanıb, dekorativ daşlar düzülüb. 70 il sovet dönəmində saf sular məkanı olan Şahbuzun dağlarındakı şəfalı bulaqlardan rayon mərkəzinə su xətti çəkilmədiyi halda, quruculuq illərinin ən yaddaqalan hadisələrindən biri də şəhərə uzaq məsafələrdən neçə-neçə şəfalı bulaqların suyunun çəkilib gətirilməsi, müxtəlif yerlərdə bulaq-abidələrin qurulması olub. 2016-cı ildə Şahbuz şəhərində içməli su və kanalizasiya sisteminin istifadəyə verilməsi isə illərlə həyata keçirilən quruculuq işlərini sanki tamamlayıb.

Bəli, illərin quruculuq töhfələri muxtar respublikamızın digər bölgələri kimi, Şahbuz şəhərinin də sosial mənzərəsinə daha gözəl, yaddaqalan naxışlar vurub. Bu gözəllik şəhər sakinlərinin rahat yaşamasına xidmət edir. Çalışdıqları inzibati binaların, yaşadıqları ictimai binaların, hər gün dəfələrlə keçdikləri küçə və yolların, park və səkilərin abadlaşması, tozanaq, çirkab mənbəyi olan hektarlarla boş sahələrdə yeni binaların ucaldılması, bağların salınması, uşaqların təhsili üçün müasirtipli məktəblərin, hərtərəfli şəraiti olan uşaq bağçasının istifadəyə verilməsi, Batabat, Salvartı və digər təbiət gözəli olan bölgələrdən çəkilib gətirilən saf suların evlərindən, həyətlərindən axması şəhər sakinlərinə illərlə həsrətində olduqları, xəyallarında canlandırdıqları hərtərəfli, rahat həyat tərzini bəxş edib. Bu gün Şahbuz şəhərinə gələn qonaqlar yaradılan yenilikdən böyük zövq alır, əvvəllər burada yaşayan insanlar isə gözlərinə inanmırlar ki, bu şəhər onların qoyub getdikləri həmin şəhərdir. Hər kəsin isə ümumi fikri budur: Məhz indi dağlara sığınan Şahbuz şəhərinin gözəl təbiəti ilə xarici görünüşü bir-birini tamamlayır.

✍ Mətanət MƏMMƏDOVA

***Naxçıvanın hər daşı tarix, hər gülü, çiçəyi min bir dərdə dərmandır. Naxçıvan şəhərindən, təxminən, 8 kilometr aralıda, Araz çayının yaxınlığındakı Nehrəm kəndi isə özünün bostan bitkiləri, xüsusən də qarpızı ilə tanınır. Yazda Nehrəm qarpızının sirri və ilin bu vədəsində ona göstərilən qulluq barədə danışacağıq.***

# Nehrəm bostanlarının ləziz məhsulu



Erkən yazda nehrəmlilər bu nemətin ərsəyə gətirilməsi üçün sahələrə axışır, böyük zəhmət sərf edirlər. Elə ailələr var ki, mövsümdə bostan bitkilərindən əldə etdikləri qazanc hesabına yeni ev tikir, avtomobil alır, bir sözlə, gün-güzəranını torpağa bağlamaqla ondan bəhrələnirlər. Artıq rayonun Yarımca, Araz, Hacıvar kimi kəndlərində də qarpız əkininə geniş yer verilir. İndi Naxçıvan-Culfa magistralı boyu, daha dəqiq desək, "Pircüvar düzü"ndə torpaq mülkiyyətçilərinə addımbaşı rast gəlmək mümkündür. Əkinlərin, xüsusən bu ərazidə aparılması məhsuldarlığın yüksək olması ilə bağlıdır.

Bir statistik məlumatı nəzərə çatdıraq ki, Nehrəm kəndinin 2700 hektar torpaq sahəsinin 350 hektardan çoxunu bostan sahələri təşkil edir. Sahələrə yaxınlaşıb qarpız əkini aparanlarla söhbətləşdik. Öyrəndik ki, müsahibimiz Asəf Məmmədov bu il 4 hektarlıq sahədə qarpız əkini aparıb və hazırda onları istixana üsulu ilə yetişdirir, üzərinə polietilen örtük çəkir. Bir maraqlı faktı da nəzərinizə çatdıraq ki, əvvəllər Nehrəm qarpızı iyul-avqust aylarında bazara çıxarılırdısa, indi bir çox dərdlərin dərmanı olan bu bostan məhsulu iyun ayında ərsəyə gətirilir. İlk olaraq insanda bu fikir yaranır ki, onun tez ərsəyə gəlməsinə gübrə və istixana amili təsir edir. Lakin heç də belə deyil. Səbəb odur ki, toxum torpağa tez salınır və şırımlara çəkilən örtüyün üzərinə düşən günəş şüaları tağların tez böyüməsinə səbəb olur. Digər torpaq mülkiyyətçisi Nemət Əsədov qeyd etdi ki, ailənin illik ruzisini məhz qarpızdan əldə edir. Buna görə də indi ailə üzvləri ilə birlikdə sahələrdə qarpız əkini həyata keçirir. Onun sözlərinə görə, toxumları martın sonu, aprelin əvvəllərində torpağa basdırmaq lazımdır. Həm də qarpızı harda gəldi əkmək olmaz. Gərək ya köhnə yonca yerinə əkəsən, ya da ən azı iki il dincə qoyulmuş xam torpaq sahəsinə. Məhsul yetişənədək gərək 3-5 dəfə bol su verəsən. Qarpız susevən bostan bitkisidir. Məlumat üçün deyək ki, qarpızı istixana üsulu ilə yetişdirmək daha əlverişlidir. Belə olan halda, kollar yaxşı inkişaf edir.

Bundan əlavə "ərəzən qarpızı" da var ki, onu yetişdirmək üçün istixanaya gərək yoxdur. Elə torpağa salınan toxumlara yaxşı qulluq edildikdə iyulun sonları yaxşı bar verir. Belə qarpızın qabığı daha nazik olur. Ümid edirik ki, zəhmətkeş insanların əməyi sayəsində bu il də daxili bazar dadlı, ləzzətli Nehrəm qarpızı ilə bol təmin olunacaq.

Muxtar RZAZADƏ

***Hər bir şəhərin simasını formalaşdıran müasir tikililər arasından boy göstərən keçmişin yadigarları olan tarixi binalardır. Bu baxımdan Naxçıvan şəhərində də belə tikililər az deyil. İndi şəhərimizdə restavrasiya olunaraq ilkin görünüşünə qaytarılan tarixi abidələr onlarladır. Bu tikililər doğma diyarımızın tarixini, milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirir. Naxçıvan şəhərinin Nizami küçəsində yerləşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin binası müasir görkəmi ilə hər kəsin diqqətini çəkməklə yanaşı, həm də qədim tarixə, zəngin mədəniyyətə və dövlətçilik ənənələrinə malik olması ilə seçilir.***

*Jurnalist araşdırması*

# Bir binanın tarixçəsi



Bəs hər bir naxçıvanlının, eləcə də muxtar respublikaya üz tutan qonaqların elə ilk baxışdan marağına səbəb olan bu binanın tarixi haqqında nə bilirik? Arxiv materialları nələrdən xəbər verir? Bununla bağlı bir çox suallara cavab tapmaq üçün ilk olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin arxivində yer alan sənədlərlə tanış olduq. Bundan əlavə, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin Şahin Girey və Kəngərli süvarilərinin bayraqları ilə bağlı yazdığı elmi və elmi-publisistik məqalələrini mütaliə etdik.

Mənbələrin araşdırılması nəticəsində məlum oldu ki, orijinal üslubda tikilən bu əzəmətli bina XIX əsrin 40-cı illərində naxçıvanlı ustalar tərəfindən ucaldılıb. Naxçıvanın Təzəkənd yaşayış məntəqəsində qurulan Ehsan xan Naxçıvanskiyə məxsus zavodda istehsal edilən kərpiclərlə tikilən bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Həmin dövrdə binanın yerləşdiyi ərazi “Poliçeyski küçəsi” adlanırmış. O illərə aid məqalələrdən məlum olur ki, adıçəkilən küçədə Naxçıvan qəzasının bir çox əhəmiyyətli idarələri yerləşirmiş. 1845-ci ildə bu binada Naxçıvan Qəza Polis İdarəsinin rəisi vəzifəsində işləyən, əslən Krım tatarı olan Akim Şahin Girey (el arasında ona Şəngiley də deyilib) çalışıb. O, bu vəzifədə işlədiyi dövrdə həm də irriqasiya işlərinə rəhbərlik edib, Şərur mahalının Arpaçay vadisində bir ərazini 24 illiyə icarəyə götürüb və öz dövrünün çox əhəmiyyətli kanalı “Şəngiley kanalı”nın tikintisini həyata keçirib. Maraqlı faktlardan biri də 1844-cü ildə gürcü şairi Nikoloz Barataşvilinin 6 ay müddətində bu binada Qəza Polis İdarəsi rəisinin köməkçisi vəzifəsində işləməsidir. Qeyd edək ki, Naxçıvanda 1840-cı il aprel ayının 10-da yaradılan ilk Qəza Polis İdarəsi məhz bu binada fəaliyyət göstərib. Ümumiyyətlə, həmin dövrdə bu binanın cəmiyyət həyatında yeri və rolu böyük olub. Belə ki, 1831-ci ildə Naxçıvanın Kəngərli süvarilərinə Rusiya çarı I Nikolayın əmri ilə verilən fəxri döyüş bayrağı da məhz burada saxlanılıb. Həmin illərdə Kəngərli döyüşçüləri bayrağın yanında fəxri qarovul kimi dayanırmışlar. Sonralar Ehsan xan Rusiya çarından xahiş edir ki, həmin bayrağın Xan sarayında saxlanmasına icazə versin. Gürcüstan Milli Arxivindəki sənədlərdən məlum olur ki, Kəngərli süvarilərinə məxsus fəxri döyüş bayrağı 1845-ci ildə təntənəli surətdə Ehsan xanın sarayına aparılıb və 1920-ci ilədək orada saxlanılıb. Tarixdən hamımıza yaxşı məlumdur ki, 1918-ci il iyunun əvvəllərində Türkiyə ordusunun 9-cu və 11-ci diviziyaları İrəvan yaxınlığındakı Uluxanlıdan hərəkət edərək iyunun 11-də Naxçıvana daxil olub. Türk qoşunları Naxçıvanın könüllülərdən ibarət taborları ilə birlikdə erməni daşnaklarını darmadağın ediblər. Bölgəni erməni zülmündən qurtarmaq üçün Naxçıvanda Araz-Türk Respublikası yaradılıb. Həmin hadisələrə haqqında bəhs etdiyimiz bu əzəmətli bina da şahidlik edib. Belə ki, Naxçıvan Araz-Türk Respublikasının Xarici İşlər Nazirliyi (nazir Bəhram xan Naxçıvanski), Hərbi Nazirlik (nazir III Kalbalı xan Naxçıvanski) və Daxili İşlər Komissarlığı bu binada fəaliyyət göstərib. Bu proses qısa müddəti əhatə etməsinə baxmayaraq, Araz-Türk Respublikası Naxçıvanın sonrakı taleyində mühüm rol oynayıb. Onu da qeyd etmək lazımdır ki, məhz o illərdə bu binada Naxçıvan General-Qubernatorluğu (general-qubernator Səməd bəy Cəmillinski 1919-cu il avqust – 1920-ci il fevral) da fəaliyyət göstərib.

Bina sovetlər dönəmində də öz əhəmiyyətini itirməyib, bir çox idarə və təşkilatların yerləşdiyi ünvan kimi tanınıb. 1970-ci ilin ortalarında Naxçıvan Rayon İcraiyyə Komitəsi, Maarif Şöbəsinin yerləşdiyi binada 1980-ci illərdə Şəhər Soveti də fəaliyyət göstərib.

Sovetlər döneminin son illərində bu bina da ögey münasibətlə üzləşib, baxımsız vəziyyətə düşüb. Ancaq ölkəmiz müstəqillik əldə etdikdən sonra bu tikili ikinci dəfə həyata vəsiqə alıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə əzəmətli binaya yeni həyat bəxş edilib. Belə ki, burada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılıb, bina əsaslı surətdə yenidən qurularaq Naxçıvanın muxtariyyət tarixinin 89-cu ildönümündə – 2013-cü il fevralın 9-da istifadəyə verilib. Hazırda bu bina klassik üslubda memarlıq elementləri, müxtəlif milli ornamentləri ilə hər kəsin diqqətini çəkir. Binanın interyeri klassik və müasir dizayn elementləri ilə zənginləşdirilib. Diqqətçəkən məqam budur ki, bərpa işləri zamanı tarixilik qorunub saxlanılıb, dizayn işlərində yerli ustaların əməyinə və sənətinə üstünlük verilib. Mərkəzdə elmi-metodik şöbə, komplektləşdirmə, kitabişləmə, elektron kataloq, biblioqrafiya proseslərinin avtomatlaşdırılması və xidmət şöbələri, surətköçürmə otağı, elektron oxu zalı, dövri mətbuat və oxu zalı, arxiv, dövlət orqanları, elmi müəssisələr, ali və orta ixtisas təhsili müəssisələri, yaradıcılıq təşkilatları tərəfindən nəşr olunan çap materiallarının fondları vardır. Gənclər naxçıvanşünaslıq istiqamətində tədqiqat işləri aparmaq məqsədilə buraya tez-tez müraciət edirlər.

Bəli, Naxçıvanın qədim tarixini, milli dövlətçilik ənənələrini yaşatmaq, bu cür binaları qoruyub saxlayaraq gələcək nəsillərə ərməğan etmək xalqın keçmişinə verilən ən böyük önəmin təzahürü, tarixi keçmişimizin bərpası istiqamətində atılan mütərəqqi addımlardandır. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yerləşdiyi bu əzəmətli binanın hər guşəsində tarixin izləri hiss edilir. Bu işlər uzaq və yaxın tariximizin yaşadılmasına xidmət edir. Tarixi yaşadanları isə dünya binə olandan bəri tarix yaşadıb.

✍ **Nail ƏSGƏROV**

***“Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməyi, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir”,*** *– deyən Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri hər zaman mühüm əhəmiyyət kəsb edib. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə alıb, yüksək dəyərləndirib. Bu gün Heydər Əliyev yolunun layiqli davamçısı Prezident cənab İlham Əliyev də öz uzaqgörən siyasəti, xüsusi qayğısı ilə Azərbaycan təhsilini forma və məzmunca yeni inkişaf səviyyəsinə çatdırmağa nail olub. Ölkə başçısının təhsil sahəsinə olan diqqət və qayğısı bu sözlərlə aydın ifadə olunur:* ***“Bütün işlər məhz məktəbdən başlayır, təhsilə diqqət, müəllimə qayğı həmişə olmalıdır. Bütün dövlət orqanları bu tövsiyələri eşitməli və praktik həyatda bunu təmin etməlidir”.*** *Dövlət başçısının bu aydın mövqeyi, Azərbaycanın qüdrətli sabahına hesablanan tapşırıq və tövsiyələri günümüzdə təhsil sahəsində qazanılan nailiyyətlərin əsas şərtidir.*

*Gənclik*

# Naxçıvanda yaşamaq da, işləmək də xoşdur

## *Ölkəmizin digər bölgələrindən gəlib muxtar respublikanın ucqar yaşayış məntəqələrində fəaliyyət göstərən gənc pedaqoqlar bu fikirdədirlər*

Bu gün muxtar respublikamızda da prioritet istiqamətlərdən birini təhsilin inkişafı təşkil edir. Modernləşmə və tərəqqi yolunda uğurla addımlayan diyarımızda təhsil sahəsinə böyük qayğı göstərilir. Tikilən və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilən, güclü maddi-texniki bazaya malik müasir təhsil ocaqları təhsilin keyfiyyətinin yüksəldilməsinə, yüksəkixtisaslı kadr potensialının artırılmasına, muxtar respublikamızın dinamik inkişafına əvəzsiz töhfədir. Təhsil sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər istər müəllimlərin, istərsə də şagirdlərin hərtərəfli inkişafında mühüm rol oynayır. Ucqar dağ və sərhəd kənd məktəblərində kadr çatışmazlığı probleminin həlli də belə tədbirlərin tərkib hissəsidir.

Qeyd edək ki, bu problemin həllinin əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən “Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında” 22 iyun 2004-cü il tarixli Qərar imzalanıb. 4 noyabr 2004-cü il tarixdə isə “2005-2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı” təsdiqlənib. Sonrakı illərdə respublikanın rayon və kəndlərində yerləşən ümumtəhsil məktəblərinin pedaqoji kadr tələbatını ödəmək məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Belə ki, dövlət ali və orta ixtisas məktəblərini pedaqoji ixtisaslar üzrə bitirərək, dövlət sifarişinə uyğun konkret iş yerlərində əmək fəaliyyətinə başlayan gənc mütəxəssislərə kommunal xidmətlərini ödəmək üçün kompensasiya verilməsi nəzərdə tutulub. Muxtar respublikamızda pedaqoji kadrların işlə təmin olunması sahəsində atılan addımlardan biri də hər il təşkil edilən təhsil yarmarkalarıdır. Artıq bir neçə ildir, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən belə yarmarkalar ucqar kənd yaşayış məntəqələrindəki təhsil müəssisələrinin kadrlarla təminatına öz töhfəsini verməkdədir. O da xüsusi vurğulanmalıdır ki, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı regionda ölkəmizin digər bölgələrindən olan ixtisaslı kadrların da işləmək arzularının reallaşmasına stimul olub. Fəxrlə deyə bilərik ki, bu gün muxtar respublikanın bütün rayonlarında belə kadrların sayı getdikcə artmaqdadır.

Elə biz də pedaqoji fəaliyyətləri ilə şagirdlərinin həyat yoluna çıraq tutan gənc kadrlarla həmsöhbət olmaq üçün yollandıq ucqar dağ kəndlərinə... İlk üz tutduğumuz yurd yeri Ordubad rayonunun Nürgüt kəndi oldu. Burada Tərtər rayon sakini, tarix müəllimi Elşad İsmayılovla görüşdük.

Nürgüt kənd tam orta məktəbində şagirdlərə tariximizi öyrədən Elşad müəllim dedi ki, yurdumuzun hər diyarı gözəldir. Lakin, nədənsə, Naxçıvan dedikdə hər zaman məndə fərqli xoş



Elşad İsmayılov deyir ki, bu diyarın torpağı, suyu, təbiəti mənə ana yurdum Kəlbəcəri xatırladır. Buz kimi bulaqları, hay-haraylı çayları, uca dağları, ən əsası insana candan yanan mehriban, səmimi, qonaqpərvər insanları... Burada yaşamaq, öyrətmək, öyrənmək, gəzmək, eyni zamanda bu yurdun insanlarını yaxından tanımaq mənə o qədər xoşdur ki... Burada yaşadığım müddətdə görürəm ki, Naxçıvan hər keçən gün daha da inamla inkişaf edir, yenilənir, çiçəklənir. Hər şeydən əvvəl, buradakı sakitlik, əmin-amanlıq, torpağa bağlılıq insanların firavan həyat sürmələrinə vəsilə olur. Elə bu səbəbdən burada yaşamaqdan məmnunluq duyuram.

Digər müsahibimiz Bakı şəhər sakini Aysel Bədəlova oldu. O, Ordubad rayonunun Kələki kənd tam orta məktəbində riyaziyyat fənnini



tədris edir. Aysel müəllimlə söhbət zamanı bildirdi ki, bu gün gənclərin bir qismi peşə borclarını ən ucqar kəndlərdə yerinə yetirirlər. Bu isə həmin kadrların öz peşələrinə olan sevgisindən irəli gəlir. Müsahibimin müəllimlərin işə qəbul imtahanında topladığı yüksək nəticə ilə şəhərə təyinat almaq şansı olsa da, o, Naxçıvan şəhərinin ucqar kəndlərində işləməyi üstün tutub. Bu istəyin isə təəssüratlar yaranırdı. Bu yurd yeri haqqında oxuduqlarım, öyrəndiklərim, eşitdiklərim – tarixi abidələri, görkəmli şəxsiyyətləri, blokada şəraitində olmasına baxmayaraq, bütün sahələrdə böyük nailiyyətlər qazanması, sürətli sosial-iqtisadi, mədəni inkişafı bu diyarı yaxından tanımağa, görməyə marağımı daha da artırdı. Ali təhsilimi başa vurduqdan sonra belə qərara gəldim ki, müəllimlər üçün təşkil olunan dövlət imtahanında iştirak edim və təyinatla muxtar respublikanın istənilən yerində dərs tədris etmək imkanı qazanım. Belə də oldu. Artıq 5 ildir ki, Nürgütdə pedaqoji fəaliyyətlə məşğulam və bu yurd yerini seçdiyim üçün özümü xoşbəxt sayıram.

Naxçıvanda gənc pedaqoji kadrlar üçün hər cür şəraitin yaradılması ilə bağlı irəli gəldiyini deyir: – Bəzən ailəm üçün darıxsam da, hər dəfə şagirdlərimin üzündəki təbəssümü gördəndə hər şeyi unuduram. Burada mühit daha səmimi, doğmadır. İnsanlar gəlir, maraqlanır, nəyin var, nəyin yox? – deyə soruşurlar. Sanki buradakı hər kəs mənə doğmadır. İnsan belə səmimiyyəti, mehribanlığı, qayğını gördükdə bu xoş mühitdən ayrılmaq istəmir.

Başqa bir müsahibimiz Yevlax rayon sakini Elvin Knyazov oldu. O, söhbət zamanı bildirdi ki, iki il əvvəl müəllimlərin işə qəbul imtahanında müvəffəqiyyət qazanaraq muxtar respublikaya – Sədərək rayon məktəbinə təyinat almaq imkanı əldə edib. O deyir ki, bu məktəbdə



çalışan müəllimlərin çoxu imtahanla qəbul olan savadlı pedaqoqlardır. Bu il bu məktəbə bir çox müəllim qəbul olunub, hamısı da yüksək nəticə göstərib. Yeni gələnlərin əksəriyyəti ali təhsillərini təzəcə başa vuranlardır.

Əvvəllər rayon və kəndlərdən olan gənclər mərkəzdə ali məktəbi bitirdikdən sonra geri qayıtmaq istəmirdilər. Ancaq indi biz gənclər üçün bir sıra güzəştlər tətbiq edilir, imtiyazlar verilir. Bu da, sözsüz ki, bizə stimul verir və öz peşəmiz üzrə həvəslə çalışırıq.

Qeyd edək ki, rayon mərkəzindən uzaq məsafədə yerləşən məktəblərdə işləyən müəllimlərin əməkhaqlarına hər ay müəyyən qədər vəsait əlavə edilir. Bundan əlavə, yuxarıda adıçəkilən qərarda belə yerlərdə işləməyə gələn kadrlara yerli icra hakimiyyəti orqanları tərəfindən torpaq sahəsinin ayrılması ilə bağlı məsələ də öz əksini tapıb. Bir sözlə, gənc müəllimlərin pedaqoji fəaliyyəti üçün böyük işlər görülür. Gənclərin ucqar rayon və kəndlərdə dərs demələrinə yüksək şərait yaratmaq məqsədilə yeni layihələr, güzəşt sistemi hazırlanır. Bu sistemdə nəzərdə tutulan bütün məsələlər gənc müəllimlərin sosial rifahının yaxşılaşdırılmasına hesablanıb. Əminik ki, gənc pedaqoji kadrlara göstərilən dövlət qayğısı onların səylə çalışmasına, nəticədə, təhsilimizin səviyyəsinin daha da yüksəldilməsinə öz töhfəsini verəcək.

✍ **Gülcamal TAHİROVA**

***Etnoqrafik araşdırmalardan məlum olduğu kimi, xalq təqvimi və onunla bağlı adətlər, mərasimlər və inanclar sistemi milli mədəniyyətimizin ən zəngin sahələrindən biridir. Bəşəriyyətin ilkin çağlarından insan övladının düşüncə tərzi, ibtidai duyum, yozum və təxəyyül imkanlarından qaynaqlanaraq zaman-zaman biçimlənib və xalqımız xalq təqviminə əsaslanaraq ilin bütün dövrlərində görülən işləri sistemli olaraq bölüb, zəngin mənəvi irs yaradıb. Bu təsərrüfatçılıq ənənələrinin bəziləri zamanla unudulsa da, əksəriyyəti günümüzdə də yaşadılmaqdadır.***

*Xalq təqvimi*

## Aprel ayı el deyimində, yozumunda

Aprel ayının isə xalq təqvimində özünəməxsus yeri var. Bu müddətdə havalar tez-tez dəyişir, təbiət canlanır. Buna görə də əkinçilik və heyvandarlıqla məşğul olan ata-babalarımız bu dövrə müxtəlif adlar veriblər. Məsələn, martın 21-dən aprelin 30-na (bəzi mənbələrdə aprelin 15-nə qədər) kimi olan dövr "qara yaz" adlanır.

Yazın əvvəlində əsən küləyə "keçiqaçıran" deyirlər. Soyuq küləyə bu adın verilməsi qışdan arıq çıxan keçilərin məhvinə səbəb olması ilə əlaqələndirilir. Bununla belə, martın sonu ilə aprelin birinci yarısı arasındakı dövrə təsadüf edir. Həmin dövrə bəzən "oğlaqqıran" da deyirlər. Ümumiyyətlə, el arasında "qara yaz" vaxtı ağır dövr hesab edilir. Ona görə də "bayramdan sonra qırx kötük, qırx şələ odun, qırx çuval saman saxla" ifadələri yaranmışdır. Babalarımız Novruzu təntənə ilə qeyd etsələr də, hələ də çətinliklərdən qurtarmadıqlarını hiss etmiş, bəzən həmin dövrü "lənət marta, aprelin 15-nə kimi", – deyə lənətləmişlər.

Aprelin 15-nə kimi (bəzi mənbələrdə aprelin 5-i) olan dövr "qarının mərdi" adlanır. Xalq arasında belə bir deyim də vardır: "Qorx aprelin beşindən, öküzü qoyar işindən". Maraqlıdır ki, bu deyimə Anadolu türklərində də rast gəlinir.

"Qarının mərdi"– bu dövrdə havalar tez-tez dəyişir, bəzən qar yağır. Həmin dövrdə yağan qara bəzən "leylək qarı" deyirlər. Xalq arasında belə inam vardır ki, leylək yumurtasının üstünə qar yağmasa, bala çıxmaz. Bu qara bəzən "heyvagülü qarı" da deyirlər. Heyva çiçək açanda yağdığı üçün bu cür adlanmışdır. Həmin vaxt yağan yarı dolu-yarı qar yağıntıya isə "çoban yarması" deyirlər.

Yazın bu dövrünə "davar (dadar) doymaz", "yatar-durmaz", "gedər-gəlməz" də deyirlər. Aprelin 10-15-nə qədər soyuqların tam sovuşmadığı dövr xalq tərəfindən "kərnəbut" (kərnəvurt) də adlandırılıb. El arasında deyirlər ki, bu vaxta qədər Naxçıvanda basdırılmış üzüm və narın üstünü açmazlar.

Yazın girməsi "kotan (cüt) dövrü" də adlanır. Novruz bayramının səhəri şum başlanır. Babalarımız həmin gün ellikcə sahəyə çıxar, ilk şırımı xalqın mötəbər bildiyi, "əli ruzili" adam edərdi. Səpin zamanı da ilk toxumu yerə həmin adam atar, Ulu Yaradandan ruzi-bərəkət diləyərdi. Atalarımız əkin, səpin vaxtı da təbiəti müşahidə edib, təyin edərdilər. Ona görə də "Durna gəldi çıx şuma, durna getdi çıx tuma" ifadəsini işlətmişlər. Şumun və səpinin vaxtında aparılması əsas şərtdir.

"Bazardan qalsan, bir gün qalarsan, əkindən qalsan, bir il qalarsan" atalar sözü də elə buradan yaranmışdır. Suvarılan əkinlərə "armuda var", "armud gülü" suyu verilir. Bu cür adlandırma suvarma vaxtını armudun çiçəkləməsi ilə təyin etmək ənənəsindən yaranıb.

Dəmyə əkinlərin vaxtında səpilməsi əsas şərtdir. İlk yağışlar onu sulamasa, bir neçə gün də palçıq əkini yubadacaq, məhsuldarlıq aşağı düşəcəkdir.

Xalq təqvimində aprel ayında yağan yağışlara müxtəlif bölgələrdə fərqli adlar verilmişdir. "Neysan yağış", "yaz yağışı", "leysan" (nisan), "abu-leysan" və sair. Bildiyimiz kimi,"leysan" gur yağan yağışa deyilir. Xeyirdən çox, dağıntılara səbəb olur. Ona görə də ilk yağan yağışın "abu-nisan" adlanmasını daha düzgün hesab edirik. Bu yağış müqəddəs hesab edilir. Bəzən bu sudan götürüb gələn ilə qədər saxlayırdılar. Bundan başqa, aprelin sonu və mayın əvvəllərində yağan yağışa "vədə yağışı" da deyirdilər. Həmin yağış taxılın boy atması ilə sünbül bağlaması, çöldə təbii otun inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Bu dövrün özünə görə çətinlikləri də var. Çobanlar buna "göy qovan" dövr də deyirlər. Səbəb odur ki, təzə çıxan otlardan doymayan qoyunlar çəmənlikdən çəmənliyə qaçırlar. Qışdan arıq-üzgün çıxan heyvanlar isə onlarla ayaqlaşa bilmir. Bir tərəfdən də dölün düşməsi çobanların işini çox çətinləşdirir. Qeyd edək ki, bu dövr həm də "döl ayı" adlanır.

Bu dövrlə əlaqədar etnoqraf Teymur Bünyadov yazır: "Elə ki yazın "qırxı" çıxdı, təzə-tər yaz otları cücərir. Yazın ilk sədaları ilə başlayan bu müddət bir para ellərimizdə "tərçıx dövrü" adlanır. Təcrübəli çobanlar qoyun-quzunu gecə də örüşə aparırlar və deyirlər ki, qoy heyvanın gözünün qurdu ölsün, yeyib özlərini doyursunlar".

Naxçıvanlı etnoqraf Asəf Orucov isə qeyd edir ki, "Xalq arasında belə bir deyim vardır ki, malın ağzı tərçıxa çatdı qorxusu yoxdur".

Göründüyü kimi, etnoqraflar bu dövrün "tərçıx" adlandırılmasını həmin vaxt təzə-tər otların çıxması ilə əlaqələndirirlər.

Aprel ayında xalq təqviminə görə bir çox işlər görülür və bu dövrdə müəyyən dəyişikliklər baş verir. Ümumi yanaşsaq, etnik mədəniyyət hər bir xalqın təşəkkül tarixini, formalaşma mərhələlərini özündə əks etdirir. Bu zəngin mədəni irsi qorumaq, ata-babalarımızın bizə miras qoyduğu ənənələri gələcəyə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur.

**Zaleh NOVRUZOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 637725 | 66972 | 67284 | 100,5 |
| 2. | Kəngərli rayonu | 759240 | 76464 | 76688 | 100,3 |
| 3. | Ordubad rayonu | 1073469 | 110315 | 110501 | 100,2 |
| 4. | Culfa rayonu | 980890 | 99077 | 99226 | 100,2 |
| 5. | Şərur rayonu | 1724546 | 176365 | 176508 | 100,1 |
| 6. | Babək rayonu | 1958505 | 200317 | 200417 | 100,0 |
| 7. | Sədərək rayonu | 209291 | 21079 | 21083 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 2234550 | 242833 | 242838 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10203714 | 1734241 | 1798059 | 103,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **19781930** | **2727663** | **2792604** | **102,4** |

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası olub



İclası bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib. Akademik çıxışında "Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı" mövzusunda beynəlxalq konfransın hazırlıq işləri və təşkilat komitəsinin yaradılması məsələlərindən bəhs edib.

Tədbirdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "XI əsrdə Naxçıvanda ədəbi mühit: Qətran Təbrizi" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi Naxçıvan diyarının müxtəlif dövrlərdə özünəməxsus ədəbi mühitinin olmasından bəhs edərək XI yüzillikdə yaşamış, ədəbi-bədii yaradıcılığı ilə məktəb yaratmış və ictimai-siyasi fəaliyyəti ilə böyük nüfuz qazanmış Qətran Təbrizinin Naxçıvana səfərindən danışıb. Mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, çoxsaylı suallar cavablandırılıb.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyələşdirdiyi qrant layihəsinin yerinə yetirilməsi ilə bağlı layihə rəhbərləri, akademik Tariyel Talıbov, AMEA-nın müxbir üzvləri Əbülfəz Quliyev və Vəli Baxşəliyev çıxış ediblər.

Tədbirdə bölmənin Batabat Astrofizika Rəsədxanasının müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev rəhbərlik etdiyi müəssisənin yeni yaradılan *www.ameanbbar.nakhchivan.az* saytı haqqında ümumi məlumat verib. Bildirib ki, Azərbaycan dilində hazırlanan saytın ingilis dili versiyası üzərində iş aparılır.

İclasda təşkilati məsələlərə baxılıb, cari məsələlər müzakirə olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Ümumtəhsil məktəblərində yaz mövsümünün dərin tibbi müayinələrinə start verilib

Son illər uşaq əhalisinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.

Cari mövsümün dərin tibbi müayinələri aprelin 2-dən başlayıb, 25-dək həyata keçiriləcəkdir. Müayinələrin normal təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçiləri ilə xəstəxananın dispanserizasiyası barədə söhbətlər aparılıb, lazımi izahatlar verilib. Şagirdlər əvvəlcədən məktəb həkimi tərəfindən müayinələrdən keçərək qruplaşdırılıb.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən bu il Naxçıvan şəhərində 20 tam orta məktəbin şagirdləri yaz mövsümünün dərin tibbi müayinələri ilə əhatə ediləcəkdir. Bu məqsədlə pediatr, oftalmoloq, stomatoloq, cərrah-ortoped, ftiziatr və digər ixtisaslı həkimlərdən ibarət briqada təşkil edilib. Dərin tibbi müayinələrə



Naxçıvan şəhərindəki 1 və 2 nömrəli tam orta məktəblərdə, Naxçıvan Qızlar Liseyində start verilib. Min nəfərdən çox şagird dərin müayinədən keçirilib. Bəzi şagirdlərdə miopiya (yaxındangörmə), ortodontik, nitq qüsurları, konstisional piylənmə, xroniki tonzillit, adenoidlər, burun çəpərində əyriliklər, revmatizm xəstəlikləri aşkar edilib, xəstələr üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***1. Pedaqogika və psixologiya kafedrası üzrə:***

- Baş müəllim – 1 yer (tam ştat)
- Müəllim – 1 yer (tam ştat)

***2. Dillər və ədəbiyyat kafedrası üzrə:***

- Professor – 1 yer (0,5 ştat) - filologiya üzrə elmlər doktoru
- Dosent – 2 yer (0,5 ştat) - filologiya üzrə fəlsəfə doktoru
- Müəllim – 1 yer (tam ştat)

***3. Ali riyaziyyat və informatika kafedrası üzrə:***

- Professor – 1 yer (0,5 ştat) - riyaziyyat üzrə elmlər doktoru
- Baş müəllim – 1 yer (tam ştat)
- Baş müəllim – 1 yer (0,5 ştat)
- Müəllim – 1 yer (tam ştat)
- Müəllim – 1 yer (0,5 ştat)

***4. Humanitar və təsviri incəsənət kafedrası üzrə:***

- Professor – 1 yer (0,5 ştat) - iqtisadiyyat üzrə elmlər doktoru
- Müəllim – 1 yer (tam ştat)

***5. Ümumi fənlər kafedrası üzrə:***

- Baş müəllim – 2 yer (tam ştat)
- Müəllim – 2 yer (0,5 ştat)

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətinə təqdim edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana göndərməlidirlər.

* * *

1. Ümumi fənlər kafedrasının müdiri – 1 yer (tam ştat) - fəlsəfə doktoru, dosent

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək olar.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1. Naxçıvan Müəllimlər İnstitutu, telefon: 545-32-02***

***Rektorluq***

## Elan

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyi 2018-2019-cu tədris ili üçün VII siniflərə və VIII-IX siniflərin vakant olan yerlərinə şagird qəbulu elan edir. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideynin ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış.*

Sənədlər 5 aprel 2018-ci il tarixdən 14 may 2018-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris korpusunda qəbul edilir.

İmtahan 27 may 2018-ci il tarixdə Naxçıvan Dövlət Texniki Kollecinin binasında keçiriləcəkdir.

İmtahana buraxılış vərəqələrini 15 may 2018-ci il tarixdən 26 may 2018-ci il tarixədək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris korpusundan əldə edə bilərsiniz.

**Qeyd:** Liseyin VII sinfinə qəbul olmaq istəyən şagirdlər riyaziyyat, fizika, ingilis dili, Azərbaycan dili, coğrafiya, biologiya və tarix fənlərindən, VIII-IX siniflərinə qəbul olmaq istəyən şagirdlər isə riyaziyyat, fizika, kimya, ingilis dili, Azərbaycan dili, coğrafiya, biologiya və tarix fənlərindən imtahan verəcəklər.

***Ünvan: Şərur şəhəri, Sabir küçəsi 26. Əlaqə nömrələri:(036) 542-31-63 (036) 542-30-76***

### *İtmişdir*

Naxçıvan şəhəri, Hacıniyyət kəndi, 7-ci küçə, 7 ünvanında olan torpaq sahəsinə aid MH-0026632 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur şəhər sakini Quliyev Faiq İbrahim oğlunun adına verilmiş Şərur şəhəri, H.Cavid küçəsi 7/8 ünvanında yerləşən torpaq sahəsinin 102013002459 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 263